## Turizm qeyri-neft sektorunun perspektivli sahəsinə çevrilir

Hər il sentyabr ayının 27-si bütün dünyada olduğu kimi, Azərbaycanda da «Beynəlxalq turizm günü» kimi qeyd olunur. Həmin gğn turizm sektorunda mövcud problemlərin həlli, sahə üzrə xidmət səviyyəsinin, infrastrukturun müasirləşdirilməsi və digər aktual mövzularda müzakirələr aparılır, ölkənin turizm potensialını əks etdirən çoxsaylı sərgilər təşkil edilir. Bütün bunlar həm də qeyri-neft sektorunun yüksək gəlirli və rəqabətə davamlı sahələrindən sayılan turizmin respublikamızda yüksək inkişaf potensialına malik olduğunu göstərir.

***Turizm sahəsində önəmli ölkə***

Əlverişli coğrafi iqlim şəraitinə, füsunkar təbiətə, zəngin mədəni-mənəvi irsə, mətbəx mədəniyyətinə malik Azərbaycanda turizmin inkişaf perspektivləri bir sıra beynəlxalq təşkilatlar tərəfindən də yüksək dəyərləndirilir. BMT-nin Ümumdünya Turizm Təşkilatının (ÜTT) qənaətinə görə, respublikamız regionda yüksək turizm potensialına malik ölkədir və bu sahə üzrə ildən-ilə müsbət irəliləyişlər hiss olunur.

ÜTT-nin bir neçə gün əvvəl Bakıda səfərdə olmuş baş katibi Taleb Rifainin bildirdiyinə görə, turizm Azərbaycanda iqtisadiyyatın qeyri-neft sektorunun inkişafı baxımından əhəmiyyətli sahədir. «Azərbaycan turizm sahəsində inkişaf edən ölkədir. Burada istər turizmin, istərsə də digər sahələrin inkişafı üçün mükəmməl imkanlar mövcuddur və bu gün həmin imkanlardan kifayət qədər istifadə edilir. Avropa və Asiyanı birləşdirən İpək Yolu üzərində yerləşdiyindən, ölkənin kulinariya və turizm potensialını təşviq edə və bunun nəticələrini görə bilərik», - Rifai deyib. O, «İpək Yolunun tamı: kulinariya, mədəniyyət və turizm» mövzusunda beynəlxalq konfransın Azərbaycanda keçirilməsini də respublikamızın bu sahədə geniş imkanlara malik olması ilə izah edib.

Təşkilatın baş katibi İpək Yolu üzərində yerləşən ölkələr arasında viza rejiminin sadələşdirilməsinin xüsusi əhəmiyyətə malik olduğunu deyib: «Biz tövsiyə edərdik ki, bu məsələni hər bir ölkə öz qanunvericiliyinə uyğun olaraq lazımi səviyyədə dəyərləndirsin. Əgər sözügedən təklif həyata keçirilərsə, o zaman Yaponiyadan tutmuş Portuqaliyaya kimi bütün ölkələr arasında vizalar sadələşdiriləcək, bu da turizmin inkişafına böyük töhfələr verəcək».

***Turistlərin sayında artım var***

Yay mövsümü başa çatsa da ölkəmizə müxtəlif ölkələrdən turist axını davam edir. 2012-ci ilin birinci yarısına olan statistika isə respublikamızın turizm potensialının gücləndiyinə dəlalət edir. Mədəniyyət və Turizm Nazirliyindən əldə etdiyimiz məlumata əsasən, yanvar-iyun ayları ərzində Azərbaycana gələn əcnəbi vətəndaşların sayı ötən ilin analoji dövrünə nisbətən 7,1% artaraq 1 milyon 88 min 823 nəfər təşkil edib. Hesabat dövründə ən çox artım Almaniya (67,7%), Özbəkistan (41,1%), Gürcüstan (21,9%), Böyük Britaniya (18,9%), Türkiyə (15,6%), Ukrayna (10,8%) və Rusiyadan (9,8%) gələn turistlərin sayında müşahidə olunub.

MDB ölkələri və Gürcüstan üzrə ümumi artım 13,9% və ya təxminən 90 min nəfər, Avropa ölkələri üzrə 20,6% və ya 30,8 min nəfər, Asiya ölkələri üzrə 11% və ya 1,0 min nəfər, Afrika ölkələri üzrə 25,3% və ya 0,23 min nəfər, Amerika və Avstraliya üzrə isə artım 14% və ya 1,1 min nəfər təşkil edib.

***Qış turizminin inkişafına dövlət dəstəyi***

Azərbaycan Turizm Assosiasiyasının sədri Nahid Hacıyev hesab edir ki, 2012-ci ilin müvafiq dövründə respublikamıza gələn əcnəbi turistlərin sayının artması, ilk növbədə, ölkəmizin sürətli inkişafının bariz göstəricisidir. Onun fikrincə, həyata keçirilən layihələr yaxın perspektivdə qış turizminin inkişafında da ciddi dönüş yaradacaq: «İqtisadi cəhətdən regionun lider dövləti olan Azərbaycan turizm sahəsində də bir sıra uğurlu layihələr həyata keçirir. Məqsəd respublikaya ilin bütün fəsillərində, xüsusən də qış mövsümündə turistləri cəlb etməkdir. Bu məqsədlə hazırda Qusar rayonunda «Şahdağ» Qış-Yay Turizm Kompleksinin tikintisi davam etdirilir. Kompleksin bu qışa hazır olacağı bildirilir. Eyni zamanda, ölkənin əsas turizm rayonlarından olan Şəki və Qəbələdə də qış turizminin inkişafı üçün tədbirlər görülür. Qəbələdəki «Tufan» dağ-xizək yay-qış istirahət kompleksinin inşası turistlərin bütün fəsillərdə ekskursiya və digər istirahət imkanlarını təmin

edəcək, eyni zamanda qış idman növləri ilə məşğul olmalarına şərait yaradacaq. Bir faktı da bildirim ki, 2011-ci ildə təkcə Qəbələ rayonuna 8 mindən çox əcnəbi turist gəlib. Bu il həmin rəqəmin daha yüksək olacağı şübhəsizdir».

Ekspertin fikrincə, il ərzində keçirilən beynəlxalq mədəniyyət və idman tədbirləri də respublikanın turizm potensialının güclənməsində mühüm rol oynayır: «Bütün dunyanın diqqət mərkəzində olan «Avroviziya» musiqi festivalından sonra Qəbələdə keçirilən Beynəlxalq Musiqi Festivalı, habelə müxtəlif idman növləri, o cümlədən güləş üzrə beynəlxalq turnirlər, velosiped turları, qadınların futbol üzrə dünya çempionatı ölkəmizə gələn turistlərin sayına müsbət təsirini göstərib».

Nahid Hacıyev bildirir ki, Quba, Şamaxı və İsmayıllı rayonlarını birləşdirən genişzolaqlı avtomobil yolunun inşasına başlanılması daxili turizmin inkişafına ciddi təsir göstərəcək: «Kifayət qədər ciddi iqtisadi əhəmiyyətə malik olan bu yolun 2013-cü ilin sonlarında istifadəyə verilməsi turizm potensialı yüksək olan iki mühüm bölgəni birləşdirəcək. Quba-Xaçmaz və Şirvan iqtisadi rayonları arasındakı məsafə 180 km qısalacaq. Quba və Şamaxını birləşdirəcək yeni yolun uzunluğu cəmi 110 kilometr olacaq və bu da daxili turizmin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir».

***«Top Resa 2012» Beynəlxalq turizm sərgisi***

Azərbaycan bu günlərdə Fransada keçirilən «Top Resa 2012» Beynəlxalq turizm sərgisində də layiqincə iştirak edib. Mədəniyyət və Turizm Nazirliyindən verilən məlumata görə, sentyabrın 21-də başa çatmış mötəbər sərgidə dünyanın bir çox ölkələrindən nüfuzlu turizm şirkətləri iştirak ediblər. Beynəlxalq sərgidə Mədəniyyət və Turizm Nazirliyinin nümayəndə heyəti, həmçinin «Geo Travel», «Gilan Tourism», «Millennium Tourism and Congress DMC», «SW travel» və digər şirkətlər təmsil olunub. Sərgidə 71,25 kvadratmetr sahədə respublikamızın turizm imkanlarını əks etdirən pavilyon quraşdırılıb, eyni zamanda burada «Azərbaycan Hava Yolları» QSC üçün xüsusi yer ayrılıb.

Beynəlxalq sərgiyə gələn ziyarətçi və iştirakçılara ingilis və fransız dillərində Azərbaycanın turizm imkanlarından bəhs edən müxtəlif növ reklam-çap məhsulları, eləcə də digər təbliğat materialları paylanılıb. Respublikamızın turizm şirkətləri 2009-cu ildən başlayaraq dördüncü dəfədir ki, «Top Resa» Beynəlxalq turizm sərgisində iştirak edir.

***Turizm sahəsində elektron xidmətlər***

Mühüm yeniliklərdən biri də turizm sahəsində elektron xidmətlərin təşkilidir. Mədəniyyət və Turizm Nazirliyindən bildirilir ki, bu məqsədlə yeni sayt (e-services.mct.gov.az) yaradılıb və vətəndaşlara 12 növ elektron xidmət göstərilir. Nazirliyin «Elektron Hökumət» dövlət informasiya sisteminə inteqrasiyası istiqamətində də tədbirlər görülür.

Bundan başqa, Bakı, Xaçmaz, Quba, Şamaxı, Şəki, Lənkəran, eləcə də İsmayıllının Lahıc kəndində turistlərə məlumatların çatdırılması məqsədilə yaradılmış turizm informasiya mərkəzlərində ziyarətçilərə elektron xidmətlərin göstərilməsi mümkündür. Nazirlikdən o da bildirilir ki, hazırda əcnəbi turistlər internet vasitəsilə - elektron formada nüfuzlu hotellərdə nömrələr bron edə bilirlər və bu da mühüm irəliləyişlərdən sayılır. Bu qəbildən olan mehmanxana və turizm obyektlərində POS-terminalların quraşdırılması da əsasən başa çatıb.

Bununla belə, turizm sahəsində xidmət və infrastrukturla bağlı müəyyən problemlərin olduğu da etiraf edilir. Müvafiq dövlət proqramları, o cümlədən «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası çərçivəsində mövcud problemlərin həlli istiqamətində zəruri tədbirlərin görüləcəyi bildirilir.

Samir MUSTAFAYEV